

# “Şuşa ili”nin hər günü yaddaqalan olacaq

> *İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

**Bu il Azərbaycan başdan-başa Şuşa havası ilə nəfəs alır. Türk dünyası Şuşanın xilasını qeyrət təntənəsi sayır. Prezident İlham Əliyev xalqa Yeni il təbrikində “Şuşa ili”nin könül şadlandıran müjdəsini verəndən beş gün sonra bu barədə sərəncam imzalayıb. Bu, o deməkdir ki, həyatımız ilboyu xarıbülbül ətrinə bələnəcək. İyirmi səkkiz il yarımlıq əsarətdən qurtardığımız 270 yaşlı Şuşanı daha da inkişaf etdirib gülüstana çevirəcəyik.**

Biz Şuşanın qara günü olan 8 mayı təqvimlərdən silən, qeyrət qalamızın yeni “doğum günü”nü noyabrın 8-də bayram edən xalqıq. Ötən, 2021-ci il Şuşanın mənəvi və fiziki yaralarını sağaltdığımız il olub. Mayın 7-də Prezident İlham Əliyev “Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında” sərəncam imzalayıb. Mayın 12-13-də bu gözəl şəhər “Xarıbülbül” musiqi festivalına evsahibliyi edib. İyunun 15-də prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsini imzalayıblar. Avqust ayında orada ənənəvi Vaqif Poeziya Günləri keçirilib. Sentyabrda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı bərpa olunub.

İşğaldan azad edilən torpaqlara il ərzində 32 dəfə səfər edən İlham Əliyev düz 7 dəfə yolunu Şuşadan salıb. Qala-şəhərimizdə böyük quruculuq işlərinə xeyir-dua verdi. Hər səfərlə Şuşanın necə dirçəldiyinin, onun ruhunun, tarixi əzəmətinin özünə qayıtdığının şahidi olduq. “Zəfər” yolu salındı. Yaralı büstlər yerinə qaytarıldı, təzə heykəllər, məqbərələr ucaldıldı, ev-muzeyləri, məscidlər, malikanələr bərpa edildi. Qurumuş bulaqların gözü açıldı, yaşayış massivinin təməli qoyuldu.

8 Noyabr – Zəfər Günündə xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Dekabrın 24-də dövlət başçısı, Müzəffər Ali Baş Komandan özünün 60 illik yubileyini məhz Zəfərimizin qürur zirvəsi olan Şuşada keçirtdi: “Şuşa hər birimizi özünə çəkir” – dedi.

İlboyu geniş ictimaiyyətin Şuşaya çoxsaylı səfərləri təşkil edildi. Şuşalıların doğma yurda qədəm basmaları təsirli səhnələri ilə yadda qaldı. Xatirə cığırları onları uşaqlıq və gənclik çağlarına aparıb çıxardı. Sevincdən, həyəcandan Xan qızı bulağının suyu kimi dupduru göz yaşı axıtdılar.

Yanvar ayından başlıca məqsədi Böyük Qayıdışın təmin edilməsi olan Bakı-Şuşa və Bakı-Ağdam istiqamətli müntəzəm avtobus marşurutlarının açılması qürur doğuran fakt oldu. Uzun illərdən sonra Beynəlxalq avtovağzalda reproduktordan ilk dəfə səslənən “Bakıdan Şuşaya gedən avtobus 1-ci platformadan minik başlanır” elanı ürəkləri vəcdə gətirdi. Sərnişinlər sevincdən əlləri əsə-əsə biletlərini nəzarətçiyə göstərib keçidlər və avtobusda yerlərini tutdular. O da var ki, bu səfərlər şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, Milli qəhrəmanlar üçün tam ödənişsizdir.

Beləcə, varlığımıza hopan, könlümüzdən qopan şaqraq sədalara çevrilən “Şuşa ili”nə start verilib. Fevralın ilk günlərində Azərbaycan Respublikasının Milli Məclisində və Türkiyə Böyük Millət Məclisində Şuşa Bəyannaməsi təsdiqlənib. Bugünlərdə isə Prezident İlham Əliyev bununla bağlı Qanunu imzalayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Şuşa Bəyannaməsinin qüvvəyə minməsi ilə əlaqədar fərmana qol çəkib.

Azərbaycan poeziyasında realizm janrının banisi, diplomat, Qarabağ xanının vəziri, şair Molla Pənah Vaqif Şuşadan dünyaya tanınıb. Bu şəhər, həmçinin sonuncu Qarabağ xanının qızı, Azərbaycan şairi və xeyriyyəçisi Xurşidbanu Natəvan, artilleriya generalı və Azərbaycan Xalq Cümhuriyyətinin Müdafiə naziri Səməd bəy Mehmandarov, məşhur bəstəkar və Şərq dünyasında ilk operanın müəllifi Üzeyir bəy Hacıbəyli, dramaturq və satirik, Azərbaycanda Teatr Yazıçıları Cəmiyyətinin yaradıcısı Əbdürrəhim bəy Haqverdiyev, ünlü opera tenoru, Azərbaycanda vokal sənətinin və milli musiqili teatrın banilərindən biri olan Bülbül və nəhayət, Şərq dünyasında ilk baletin müəllifi Əfrasiyab Bədəlbəyli kimi görkəmli tarixi şəxsiyyətlərin vətənidir.

...Şuşanın tarixindən danışan zaman yada Kor Xəlifənin məktəbi də düşür. 1883-cü ildən Şuşada fəaliyyət göstərmiş dini xarakterli bu musiqi məktəbi Molla Əli Qarabağı tərəfindən açılıb. Onillik fəaliyyəti dövründə Kor Xəlifənin məktəbi nəinki Qarabağda, həmçinin qonşu vilayətlərdə və İranda da tanınıb. Bu təhsil müəssisəsi Qarabağ əhalisinin mədəni inkişafına böyük təsir göstərib, Şuşanın Qafqazın musiqi mərkəzinə çevrilməsində mühüm rol oynayıb. “Məclisi Fəramuşan” ədəbi məclisi 1872-ci ildə Mir Möhsün Nəvvabın evində təşkil edilib və 1910-cu ilədək fəaliyyət göstərib. Qarabağ xanəndələri bu məclisdə yaxından iştirak ediblər. Ədəbi-musiqili dərnək olan “Məclisi-üns” isə 1864-cü ildə Şuşada şair Hacı Abbas Ağahın evində təşkil olunub və Xurşidbanu Natəvanın rəhbərliyi ilə 1897-ci ilədək fəaliyyət göstərib. 1930-cu ilin əvvəllərində Şuşada ilk musiqi texnikumu təşkil olunub. 1948-ci ildən həmin texnikum uşaq musiqi məktəbi kimi fəaliyyət göstərməyə başlayıb.

XVII – XIX əsr müharibələri dövründə Şuşa bir neçə dəfə sınaqdan uğurla çıxaraq, qalib gəlib. Şuşaya hücum edən Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Ağa Məhəmməd şah Qacar qalanı ala bilməyiblər. Bu dövrdə Qarabağ hökmdarı Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədilə Qarabağ xanlığının ən strateji mövqelərində müdafiə qurğularının tikintisinə başlayıb. İlk olaraq Bayat qalasını (1748), daha sonra Şahbulaq qalasını (1752) inşa etdirib. Lakin Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı yeni bir qala ucaltmağı qərara alıb. Yeni qala ilk illərdə öz banisinin adı ilə “Pənahabad”, sonralar isə “Şuşa” adlandırılıb. 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Pənahəli xan özünü bu torpaqların xanı elan edib və ərazini yağı hücumlarından qorumaq məqsədilə mükəmməl qala tikdirməyi qərara alıb. Pənahəli xanın oğlu, Qarabağın ikinci hakimi İbrahimxəlil xanın hakimiyyəti illərində xanlıq daha da güclənib və inkişaf edib...

“Şuşa ili” şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun inkişafına güclü təkan olacaq. Bu qərarla şəhərin tarixi görkəminin və əvvəlki şöhrətinin özünə qaytarılması sürətlənəcək, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği daha da genişlənəcək.

Parisdə Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə sessiyada ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış edərək deyib ki, “Xarıbülbül” musiqi festivalı Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edilməsindən sonra ilk möhtəşəm tədbir olub. Festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi kollektivləri Cıdır düzündə bir araya gətirilib, Azərbaycan mədəni müxtəlifliyini əks etdirən xalq və klassik musiqi proqramı təqdim olunub və bu, ənənəvi şəkildə hər il davam edəcək.

“Şuşa ili” ilə bağlı hökumət tədbirləri planı tezliklə rəsmiləşəcək. Artıq ölkədə çeşidli mədəni, elmi tədbirlər təşkil olunur. Mədəniyyət Nazirliyi “Şuşa ili”nə həsr olunmuş pyes müsabiqəsi elan edib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda “Qarabağnamə” filminin təqdimatı və Xalq rəssamı Arif Hüseynovun rəsm əsərlərindən ibarət sərginin açılışı olub. Türkiyənin “Eslem Film” şirkəti yaxın zamanda Azərbaycan kinematoqrafçıları ilə birlikdə 44 günlük Vətən müharibəsi və Şuşadan bəhs edən filmin çəkilişlərinin başlamağı nəzərdə tutur. Müştərək filmin heyətinin yarısını Azərbaycan, yarısını da Türkiyə kino sənətçiləri təşkil edəcəklər. Əsas məqsəd Azərbaycanı və tarixi Zəfərlə başa çatan Vətən müharibəsini dünyaya tanıtmaq, eyni zamanda, 30 il doğma yurd həsrəti çəkmiş azərbaycanlıların nisgilini göstərməkdir. Layihənin davamı kimi serial çəkilişi də nəzərdə tutulub.

Niderlandın “The Holland Times” qəzetində “Şuşa – Azərbaycanın mirvarisi” adlı məqalə dərc edilib. Məqalədə bildirilir ki, 270 yaşlı Şuşa Azərbaycan mədəniyyətinin beşiyi kimi tanınır. Özünəməxsus gözəlliyi, təbiəti, qədim abidələri, bulaqları, Qarabağın “Xarıbülbül” (Ophrys caucasica) adlı endemik çiçəyi və nadir Qarabağ atları ilə tanınır. Məqalədə şəhərin adının mənası haqqında da məlumat verilib. Qeyd edilib ki, xalq rəvayətinə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğundan “Şuşa” (“şüşə”) adı verilib. Şuşa şəhərinin, eləcə də bütün Qarabağın mədəni-maarif və humanitar həyatının qurulmasında Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın xüsusi rolu vurğulanıb. Natəvanın XIX əsrin ən dəyərli şair və musiqişünaslarından biri olmasından, xalqın maariflənməsinə, ədəbiyyatın inkişafına, Şuşanın abadlaşmasına töhfələr verməsindən yazılıb. Diqqətə çatdırılıb ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində dağlar diyarı Qafqazın mədəniyyət mərkəzinə çevrilib. Şuşa “Kiçik Paris”, “Qafqaz incəsənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Zaqafqaziyanın konservatoriyası” adlandırılıb...

Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin nəşr etdiyi “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” və “Xan Şuşinski” biblioqrafiya kitablarının təqdimat mərasimi keçirilib. Dahi şair və dramaturq Hüseyn Cavidin 140 illik yubileyi və “Şuşa ili” ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüseyn Cavidin ev-muzeyi və Şuşa Dövlət Musiqili Dram Teatrının birgə layihəsi əsasında Hüseyn Cavidin “Ana” mənzum pyesinin yeni quruluşda təqdimatı olub. Niyazinin mənzil-muzeyində “Musiqili Şuşa” rubrikası ilə “Hacıbəyovlar: Niyazi” adlı tədbir keçirilib. Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğunun Nizami Gəncəvi Məqbərə Kompleksinin təşkilatçılığı ilə “Dahilərimiz və tariximiz” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Molla Pənah Vaqif və Xurşidbanu Natəvan haqqında maraqlı çıxışlar olub.

Azərbaycan Televiziyası “Şuşa ili” ilə əlaqədar olaraq “Şuşam mənim” adlı yeni layihəyə start verir. Layihə silsilə verilişlər şəklində olacaq. İlboyu yayımlanacaq verilişdə Əməkdar incəsənət xadimi İlham Rəhimli iki şuşalı ilə birlikdə şəhəri qarış-qarış gəzəcək. Onlar Şuşada əvvəl mövcud olub, işğal zamanı ermənilər tərəfindən dağıdılmış abidələrin yerini, yaxud qalıqlarını tapır, köhnə şəkillərini və hazırkı vəziyyətini nümayiş etdirirlər. Layihənin məqsədi erməni barbarlığını bir daha dünyaya nümayiş etdirməkdir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Elnarə Akimovanın “Şuşa ili”nin estetikası ilə bağlı düşüncələri maraqlıdır. Muğam irsimizin və mədəniyyət tariximizin yorulmaz tədqiqatçılarından olan filologiya üzrə fəlsəfə doktoru, şair Gülhüseyn Kazımlı belə bir inam ifadə edib ki, “Şuşa ili” xalqımızın həyatında rəngarəng yeniliklərlə əlamətdar olacaq: “Mənim haqqında kitab yazdığım Bülbülcan Şuşada doğulub, orada yaşayıb-yaradıb. Onun şəhərdə evi olması barədə müəyyən faktlar var. Şuşada Vaqif Poeziya Günlərində iştirak edərkən bu məsələ ilə əlaqədar məlumatlar topladım. Araşdırmalarımı tamamlamaq üçün yenidən Şuşaya getmək istəyirəm. Həmçinin Beynəlxalq Muğam Mərkəzi tərəfindən ekranlaşdırılan “Bülbülcan” sənədli filminin bəzi detallarının Şuşada çəkilməsi nəzərdə tutulur”.

Martda Heydər Əliyev Sarayında Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Xan Şuşinskinin xatirə gecəsi keçiriləcək. “Şuşanın dağları” mahnısının sədaları yayılacaq və xəyalımızı o dağlara pərvazlandıracaq. “Qarabağ şikəstəsi” yenidən səmaya bülənd olacaq.

Türkiyədə fəaliyyət göstərən Avrasiya Yazıçılar Birliyinin (AYB) sədri Yaqub Ömərоğlunun da Şuşa barədə fikirləri sevgilərlə doludur: “Şuşanın bütün mənalarda çox böyük rəmzi əhəmiyyəti var. Şuşa şairləri, bəstəkarları, sənət adamları ilə Azərbaycanın mədəniyyətini təmsil edir. 2022-ci ilin “Şuşa ili” elan olunması mühüm hadisədir. 2021-ci il iyunun 15-də Azərbaycan ilə Türkiyə arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti böyükdür. Ümid edirik ki, Şuşa gələn il türk dünyasının mədəniyyət paytaxtı seçiləcək. Bütün türk dünyası Şuşanın gözəlliyini, Qarabağda yaşananları görəcək. Eyni zamanda, oradakı mədəniyyət və sənətlə bərabər, ermənilərin həyata keçirdiyi vandalizm aktlarının da şahidi olacaqlar”.

Bəli, “Şuşa ili” Azərbaycanın tərcümeyi-halında xüsusi yer tutacaq və hər günü yaddaqalan olacaq.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**